*Azərbaycan Respublikası*
*Auditorlar Palatası Şurasının*
*2015-ci il 22 iyun tarixli 264/2 saylı*
*qərarı ilə təsdiq edilmişdir*

**"Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında"**

# Ə S A S N A M Ə

## I. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa və "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə uyğun olaraq beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış və aşağıdakıları müəyyən edir:

1.2. Azərbaycan Respublikasının Auditorlar Palatasına (bundan sonra "Auditorlar Palatası") üzvlüyə qəbul şərtləri və qaydalarını;

1.3. Auditorlar Palatasının üzvlərinin hüquq və öhdəliklərini;

1.4. Auditorlar Palatasına üzvlük haqlarının ödənilməsi qaydalarını və müddətlərini;

1.5. Auditorlar Palatasının üzvlüyünün dayandırılması şərtlərini və qaydalarını;

1.6. Auditorlar Palatasının üzvlüyündən çıxmağın qaydasını.

## II. Məqsədi

2.1. Bu Əsasnamənin məqsədi - beynəlxalq təcrübə nəzərə alınmaqla Azərbaycan Respublikasında auditin inkişaf etdirilməsi və əhatə dairəsinin genişləndirilməsi, onun idarə edilməsinin təkmilləşdirilməsi, kadr potensialının müəyyən edilməsi və ondan səmərəli istifadə edilməsi, peşənin imicinin yüksəldilməsinə mütəxəssislərin cəlb edilməsindən ibarətdir.

## III. Üzvlüyün növləri

3.1. Auditorlar Palatasında üzvlüyün növləri aşağıdakılardır:

- Həqiqi üzvlər;
- Korporativ üzvlər;
- Assosiativ üzvlər;
- Fəxri üzvlər.

## IV. Üzvlərin statusu

4.1. **Həqiqi üzvlər -** Auditorlar Palatasından rəsmi icazə (lisenziya) alan auditor təşkilatları və sərbəst auditorlar.

4.2. **Korporativ üzvlər -** Auditorlar Palatasında aşağıdakı hüquqi şəxslərə verilir:

- Auditorlar Palatası ilə əməkdaşlıq haqqında müqavilə bağlayan hüquqi şəxslər;

- Auditorlar Palatasının üzvlərinin ixtisasartırma və hazırlığına dair akkreditasiya tələblərini özündə birləşdirən tədris - metodik mərkəzlər;

- Maliyyə, mühasibat, iqtisadi təhlil, hüquqşünas və audit sahəsində mütəxəssislər hazırlayan təhsil müəssisələri;

- Maliyyə, mühasibat uçotu, daxili audit, maliyyə menecmenti və digər müvafiq sahələr üzrə ixtisaslaşmış qeyri-hökumət təşkilatları, ictimai birliklər.

4.3. **Assosiativ üzvlər** - iqtisadiyyat və maliyyə sahəsi ilə əlaqəsi olmayan və Auditorlar Palatasının xidməti maraqlarına uyğun gələn hüquqi və ACCA, CPA, CIPA, CAP, mühasibat və audit sahəsində digər tanınmış beynəlxalq sertifikatlara malik fiziki şəxslər.

4.4. **Fəxri üzvlər -** Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olan qocaman mühasiblərə, alimlərə, dövlət qurumlarının nümayəndələrinə, idarə rəhbərlərinə, xarici peşəkar mühasibat və audit birliklərinin nümayəndələrinə və bu keyfiyyətlərə cavab verən Auditorlar Palatasının üzvlərinə və əməkdaşlarına verilir. Fəxri üzv statusu barədə qərar Auditorlar Palatasının Şurası tərəfindən qəbul olunur.

## V. Üzvlərin hüquqları

Auditorlar Palatasının üzvlərinin aşağıdakı hüquqları vardır:

5.1. Auditorlar Palatasının fəaliyyəti ilə bağlı mühasibat uçotu və audit sahəsində, vergiqoyma və digər məsələlərlə bağlı, qanunvericilik və normativ bazaları əhatə edən təkliflər vermək.

5.2. Auditorlar Palatasının fəaliyyət istiqamətinin genişləndirilməsində və onun inkişaf etdirilməsində iştirak etmək.

5.3. Auditorlar Palatasının təşkil etdiyi konfrans, simpozium, seminar, dəyirmi masa və.s tədbirlərdə iştirak etmək.

5.4. Fəaliyyəti çərçivəsində öz peşəkar maraqlarını qorumaq məqsədilə Auditorlar Palatasına müraciət etmək və Palatanın hərtərəfli dəstəyindən istifadə etmək.

5.5. Auditorlar Palatasının məsləhət, informasiya, kitabxana və bu kimi xidmətlərindən istifadə etmək.

5.6. Auditorlar Palatasının və onun üzvlərinin işinin yaxşılaşdırılması üçün təkliflərini vermək.

5.7. Kadrların hazırlanmasında təşkilati-metodik köməkdən istifadə etmək.

5.8. Auditorlar Palatasının Şurasında fəxri üzvlərin məşvərətçi səsvermə qismində iştirak etmək.

## VI. Üzvlərin öhdəlikləri

Auditorlar Palatasının üzvlərinin aşağıdakı öhdəlikləri vardır:

6.1. Bu Əsasnamədəki məqsədlərə çatmaq, həmçinin, Palatanın dinamik inkişafının təmin olunmasında iştirak etmək.

6.2. Auditorlar Palatasının mühasibat uçotu, audit və iqtisadi təhlilin inkişaf etdirilməsi ilə bağlı keçirdiyi tədbirlərdə aktiv iştirak etmək.

6.3. Auditorlar Palatasının maraqlarını qorumaq və onun fəaliyyəti ilə bağlı məxfi məlumatları açıqlamamaq.

6.4. Bu Əsasnamə ilə müəyyən olunmuş üzvlük haqlarını vaxtında ödəmək.

6.5. Auditorlar Palatası ilə əlaqədar öhdəlikləri yerinə yetirmək.

6.6. Auditorlar Palatasının üzvləri qanunvericiliyə uyğun olaraq, digər öhdəliklərə də malik ola bilərlər.

## VII. Üzvlüyə qəbul prosedurаları

7.1. Korporativ və assosiativ üzv statusu almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidir:

- Ərizə;
- Təsis sənədinin surəti;
- Vergi orqanından qeydiyyat şəhadətnaməsinin surəti;
- Üzvlük haqqının ödənilməsini təsdiq edən sənədin surəti;
- Müvafiq sertifikatların surəti (əgər varsa).

## VIII. Üzvlük haqlarının ödənilməsi qaydası və müddəti

**Korporativ üzvlər:**

8.1. Auditorlar Palatasının korporativ üzvlərinin sənədlərinin qəbulu zamanı, xarici təşkilatlar istisna olmaqla hüquqi şəxslər 50 manat ödəniş etməlidir.

8.2. Korporativ üzvlərin fəaliyyətə başlamaq üçün ödəniş haqqı aşağıdakı kimi olur:

8.3. Xarici peşəkar üzvlər (xarici hüquqi şəxslər) istisna olmaqla Auditorlar Palatasının korporativ üzvlərinin illik üzvlük haqqı 550 manat təşkil edir.

8.4. Auditorlar Palatası ilə əməkdaşlıq razılaşması olan xarici peşəkar üzvlər (xarici hüquqi şəxslər) istisna olmaqla Palatanın dövlət qeydiyyatına alınmış korporativ üzvlərinə illik üzvlük haqqının 75%-ni təşkil edən güzəşt edilir.

8.5. Korporativ üzvlərin akkreditasiyasından 1 il keçdikdən sonra Auditorlar Palatası ilə əməkdaşlıq razılaşması olan ali təhsil müəssisələri və təhsil-metodik mərkəzləri illik üzvlük haqqını Auditorlar Palatasında 25% ödəyirlər.

8.6. Auditorlar Palatasının korporativ üzvlərinə: Auditorlar Palatası ilə birbaşa razılaşma bağlamış təhsil-metodik və təhsil-metodik sənaye mərkəzlərinə illik ödənişin 50% miqdarı təklif olunur.

8.7. Xarici peşəkar üzvlərin (xarici hüquqi şəxslər) illik üzvlük haqları 20 manat təşkil edir.

**Assosiativ üzvlər:**

8.8. Auditorlar Palatasının assosiativ üzvləri qəbul üçün ödənişdən azad olunurlar.

8.9. Auditorlar Palatasının assosiativ üzvlərinin illik üzvlük haqqı aşağıdakı kimi təşkil edir:

- Hüquqi şəxslər - 50 manat.
- Fiziki şəxslər - 20 manat.

**Fəxri üzvlər:**

8.10. Auditorlar Palatasının fəxri üzvləri qəbul üçün ödənişdən və üzvlük haqqından, ixtisasartıma kursu ödənişindən azad olunurlar.

**Üzvlük haqlarının ödənilməsi müddəti:**

8.11. Üzvlük haqqının ödənilməsi Auditorlar Palatasının bank hesabına və ya kassasına ödəniş yolu ilə həyata keçirilir və növbəti ilin 31 mart tarixinədək müddət verilir.

8.12. Üzvlük haqqının məbləğinə və ödəniş haqqına güzəştlərə dəyişikliklər Auditorlar Palatası Şurasının qərarı ilə həyata keçirilir.

## IX. Dublikatın alınması

9.1. Ad, soyad və ya təşkilatın adında dəyişiklik olan zaman hüquqi şəxsin müraciətinə asasən yeni üzvlük vəsiqəsi və ya sertifikatın dublikatı verilə bilər. Bu halda dublikatın verilməsi üçün 10 manat ödəniş haqqı hesablanır.

9.2. Ad, soyad və ya təşkilatın adında dəyişiklik olan zaman, yeni üzvlük vəsiqəsi və ya sertifikatın dublikatının verilməsi üçün Auditorlar Palatasının üzvü aşağıdakı sənədləri Palataya təqdim etməlidir:

- Ad, soyad və müəssisənin adında olan dəyişiklikləri təsdiq edən sənədin surəti;
- Yeni vəsiqə və ya sertifikatın verilməsi üçün hesablanmış ödənişin yerinə yetirilməsini təsdiqləyən sənədin surəti.

9.3. Auditorlar Palatasına təqdim edilmiş sənədləri yoxlayır və yeni üzvlük vəsiqəsi və ya sertifikatı Palata tərəfindən təsdiq olunmuş müddətdə və qaydada təqdim edir.

## X. Üzvlüyün dayandırılması şərtləri və qaydaları

10.1.Auditorlar Palatası üzvünün aşağıdakı hallarda üzvlüyü dayandırıla bilər:

- Üzvlük haqqı vaxtında ödənilmədikdə (əgər üzvlük haqqı müəyyən edilibsə);
- Üzvlük öhdəliklərini yerinə yetirmədiyi halda.

10.2. Üzvlük dayandırıldığı halda üzvlük haqları geri qaytarılmır və əsasnamədəki işlərin yerinə yetirilməsinə, məqsədlərə nail olunması üçün sərf olunur.

## XI. Üzvlükdən çıxmağın qaydası

11.1. Auditorlar Palatasının üzvü öz şəxsi istəyilə üzvlükdən çıxmamışdan 1 ay əvvəl yazılı şəkildə məlumat verərək üzvlükdən çıxa bilər.